# TƏCVİD
# qaydaları

Bütün Gürcüstan Müsəlmanları İdarəsi

Tbilisi 2021

# MÜQƏDDİMƏ

Təcvid sözü lüğətdə "gözəlləşdirmək, yaxşılaşdırmaq" mənasındadır. Təcvid elminin tərifi isə belədir:

**"Hərflərin[1] sifət və ehkamına riayət etməklə onların öz məxrəcindən düzgün tələffüz edilməsi."**

Bu tərifə əsasən **"Təcvid"** elmi 3 bölümdən ibarətdir:

1. **Hərflərin məxrəci ilə tanışlıq.**
2. **Hərflərin sifəti ilə tanışlıq.**
3. **Hərflərin ehkamı ilə tanışlıq.**

Hərfləri tələffüz edərkən onların əmələ gəldiyi və xaric olduğu yer **"məxrəc"** adlanır.

"Hərfin sifəti" dedikdə, hərflərin söz tərkibində deyil, təklikdə əmələ gəlmə keyfiyyəti və öz məxrəcindən tələffüz edilmə qaydası nəzərdə tutulur.

"Hərfin ehkamı" dedikdə isə hərflərin söz tərkibindəki qaydaları, yəni, yanaşı düşdüyü hərflərə və qəbul etdiyi hərəkələrə əsasən meydana çıxan qaydaları nəzərdə tutulur.

## TƏCVİD ELMİNİN FAYDASI

Muzzəmmil surəsinin 4-cü ayəsində buyurulur:

وَرَتِّلِ ٱلْقُرْءَانَ تَرْتِيلًا

Yəni, "... Quranı tərtil ilə, aram-aram oxu."

Quranı tərtil ilə oxumaq barədə Həzrət Əli (ə) belə buyurur:

ٱلتَّرْتِيلُ أَدَاءُ الحُرُوف وَحِفْظُ ٱلْوُقُوف

"Tərtil, hərfləri öz məxrəcindən tələffüz etmək və vəqf yerlərinə riayət etməkdir."

"Təcvid" elmində də hərflərin düzgün tələffüzü, onların sifət və ehkamı barədə məlumat verilir. Bu qaydalara riayət etməklə İlahi kəlam düzgün və gözəl şəkildə tilavət olunacaqdır.

Bunu da xatırladırıq ki, "Təcvid" qaydalarını tətbiq etmək üçün ilk öncə Quranı üzündən sərbəst oxumağı bacarmaq lazımdır.

---

[1] Kitabın "Qiraət" hissəsində qeyd etdiyimiz kimi ərəb əlifbası hərfləri samit səsləri təşkil edir və "hərf" dedikdə samitlər nəzərdə tutulur.

## BİRİNCİ BÖLÜM

# HƏRFLƏRİN MƏXRƏCİ İLƏ TANIŞLIQ

Hərflərin məxrəclərinin sayı barədə müxtəlif nəzəriyyələr vardır. Qiraət və təcvid elminin alimləri məxrəclərin sayının 14 və ya 16, yaxud da 17 olduğunu hesab edirlər. Bu nəzəriyyələr arasında ən məşhuru İbn əl-Cəzrinin nəzəriyyəsidir. O, məxrəclərin sayının 17 olduğunu bildirib.

Bütün hərflər danışıq üzvlərinin əsasən beş nahiyəsində əmələ gəlir və bunlar aşağıdakı kimi adlanır:

1. **Covf** nahiyəsi, yəni, ağız boşluğu.
2. **Həlq** nahiyəsi, yəni, boğaz.
3. **Lisan** nahiyəsi, yəni, dil.
4. **Şəfəteyn** nahiyəsi, yəni, dodaqlar.
5. **Xəyşum** nahiyəsi, yəni, burun boşluğu.

### COVF NAHİYƏSİ

Covf nahiyəsi, mədd hərflərinin, yəni, uzun saitlərin xaric olduğu yerdir. Əlbəttə, mədd hərfləri, müstəqil hərf olmayıb hərəkələrin uzadılması nəticəsində əmələ gəlir və onların məxrəci də şərti olaraq ağız və boğaz boşluğu qəbul edilir.

### HƏLQ NAHİYƏSİ

Həlq, danışıq üzvlərinin bir nahiyəsi olub aşağıdan səs telləri, yuxarıdan isə dilçəyin olduğu yerlə məhdudlaşır.

Həlq nahiyəsində üç məxrəc vardır və altı hərf bu üç məxrəcdən tələffüz edilir:

| | | |
|---|---|---|
| 1. | ء (həmzə) və هـ (hə) | Boğazın dərinliyindən – hülqumun olduğu yerdən tələffüz edilir. |
| 2. | ح (hə) və ع (əyn) | Boğazın orta hissəsindən tələffüz edilir |
| 3. | خ (xa) və غ (ğayn) | Boğazın yuxarı hissəsindən (başlanğıcından) tələffüz edilir. |

## LİSAN NAHİYƏSİ

Lisan nahiyəsində 10 məxrəc vardır və dil, dilçək, damaq, dişlər və diş ətinin iştirakı ilə buradan 18 hərf tələffüz edilir.

| | | |
|---|---|---|
| 1. | ق (qaf) | Dilin kökü və dilçək bir-biri ilə təmasda olur və onların bir-birindən ayrılması ilə "qaf" hərfi tələffüz edilir. |
| 2. | ك (kəf) | Dilçək dilin kökü ilə deyil, bir qədər ön tərəflə təmasda olur və onların bir-birindən ayrılması ilə "kəf" hərfi tələffüz edilir. |
| 3. | ج (cim), ش (şin) və ى (yə) | Dilin ortası yuxarı damaq ilə - dilin ortası bərabərində olan hissəsi ilə təmasda olaraq tələffüz edilir. |
| 4. | ض (zad) | Dilin kənarı (istər sağ tərəfi, istərsə də sol tərəfi, lakin dilin sol tərəfi ilə daha asan tələffüz edilir) yuxarı yan azı dişlərə sıxılaraq qalın tələffüz edilir. |
| 5. | ل (ləm) | Dilin ön tərəfinin kənarları, eləcə də dilin ucu öz müqabilində olan üst dişlərin ətinə söykənərək tələffüz edilir. |

| | | |
|---|---|---|
| 6. | ن (nun) | Dilin ucu üst qabaq dişlərin ətinə söykənərək tələffüz edilir. |
| 7. | ر (ra) | Dilin ucunun üst qabaq dişlərin ətinə - "nun" hərfinin məxrəcindən bir qədər geri - fasiləli, lakin sürətli toxunuşu ilə tələffüz edilir. |
| 8. | ت (tə), د (dəl) və ط (ta) | Dilin ucu üst qabaq dişlərin ətinin qabarıq yerinə söykənərək tələffüz edilir. |
| 9. | ز (zeyn), س (sin) və ص (sad) | **Dilin ucu alt qabaq dişlərə söykənir və dilin səthi üst qabaq dişlərin ətinə** yaxınlaşdırılaraq tələffüz edilir. |
| 10. | ث (*sə*), ذ (*zəl*) və ظ (za) | Dilin ucu üst qabaq dişlərin altından azacıq çıxmaqla (pəltək) tələffüz edilir. |

## ŞƏFƏTEYN NAHİYƏSİ

Şəfəteyn nahiyəsində 2 məxrəc vardır:

| | | |
|---|---|---|
| 1. | ف (fə) | Aşağı dodaq üst qabaq dişlərə söykənərək tələffüz edilir. |
| 2. | ب (bə), م (mim) və و (vəv) | "mim" və "bə" hərfləri dodaqların qovuşması, "vəv" hərfi isə dodaqların qönçələnməsi ilə əmələ gəlir. |

## XƏYŞUM NAHİYƏSİ

Burun boşluğuna "xəyşum" və ondan xaric olan səsə isə "ğunnə" deyilir.

"م" (mim) və "ن" (nun) hərflərinin tələffüzü zamanı səsin çox hissəsi burundan çıxır və ona görə də bu iki hərfə "ğunnə hərfləri" deyilir.

**SUAL VƏ TAPŞIRIQLAR:**

**1)** Məşhur nəzəriyyəyə görə hərflər neçə məxrəcdə tələffüz edilir və bu məxrəclər danışıq üzvlərinin əsasən hansı nahiyələrində yerləşir?

**2)** Covf nahiyəsində hansı hərflərin məxrəci yerləşir?

**3)** Həlq nahiyəsində neçə məxrəc var və hansı hərflər bu məxrəclərdən tələffüz edilir?

**4)** Şəfəteyn nahiyəsində neçə məxrəc var və hansı hərflər bu məxrəclərdən tələffüz edilir?

**5)** "Xəyşum" nədir və xəyşumdan xaric olan səsə nə deyilir?

**6)** Hansı hərflər "ğunnə hərfləri"dir?

## İKİNCİ BÖLÜM

# HƏRFLƏRİN SİFƏTİ İLƏ TANIŞLIQ

"Hərfin sifəti" dedikdə, hərflərin söz tərkibində deyil, təklikdə **tələffüzü** zamanı yaranan vəziyyət və keyfiyyət, öz məxrəcindən **tələffüz** edilmə qaydası nəzərdə tutulur.

Hər bir hərfin sifəti onun tələffüzünə birbaşa təsir edir. Hərfin qalın, incə, zəif, qüvvətli, burundan və s. kimi tələffüz olunması belə "sifət"lərdəndir.

Qeyd edək ki, eyni məxrəcdən olan hərflər bir-birindən sifətləri vasitəsilə fərqlənirlər.

"Sifət"lər çoxdur, lakin burada onlardan bəziləri haqqında məlumat veriləcəkdir.

1. **İstila**
2. **İstifal**
3. **Ğunnə**
4. **Lin**
5. **Qəlqələ**

## İSTİLA

"İstila" sözü lüğətdə "yüksəklik tələb etmə", "yuxarıya doğru meyl etmək" mənasında işlənmişdir. Təcviddə isə "tələffüz zamanı dilin yuxarı damağa tərəf qalxması" mənasını daşıyır. Nəticədə həmin hərf qalın və ağız dolusu tələffüz edilir.

İstila sifətli hərflər bunlarıdır.

ص – ض – ط – ظ – غ – خ – ق

## İSTİFAL

"İstifal" sözü lüğətdə "aşağı enmək" mənasındadır. Təcviddə isə "tələffüz zamanı dilin aşağı damağa yapışması" mənasını daşıyır. Göründüyü kimi bu sifət, "istila" sifətinin əksidir və bu sifətə malik olan hərflər incə tələffüz edilir. İstila hərflərindən başqa qalan hərflər - "ra" hərfi istisna olmaqla, çünki bu hərf, bəzən qalın, bəzən də incə oxunur – istifal sifətli hərflərdir:

ء – ب – ت – ث – ج – ح – د – ذ – ز – س – ش –

ع – ف – ك – ل – م – ن – ه – و – ى

## ĞUNNƏ

Həm lüğətdə, həm də təcviddə burun boşluğundan xaric olan səsə "ğunnə" deyilir.

Ğunnə sifəti "nun" (ن) və "mim" (م) hərflərinə aiddir.

Ğunnənin ən kamil surəti bu iki hərf təşdidli olarkən yaranır. Məsələn:

مِمَّا – أَنَّ

## LİN

"Yumşaqlıq" mənasını daşıyan "lin" sözü təcviddə də səsi yumşaq tələffüz etməyə deyilir. Lin sifəti yalnız iki hərfdə - "sakin vəv" (وْ) və "sakin yə" (ىْ) hərflərindən əvvəl "fəthə" hərəkəsi gəldiyi zaman yaranır. Məsələn:

فَوْقَ – لَيْلٌ

## QƏLQƏLƏ

"Qəlqələ" sözü lüğətdə "hərəkətə gətirmək, titrətmək" mənasını bildirir. Təcviddə isə "hərfi öz məxrəcində sükunlu halda tələffüz etmək" deməkdir. (Yəni, qəlqələ hərflərini tələffüz edərkən samit səsə heç bir sait səs (ə, i, u) artırılmamalıdır). Qəlqələ hərfləri beş hərfdir:

د – ج – ب – ط – ق

Bu hərflər birləşdirilib şərti olaraq (قُطْبُ جَد) adlanır.
Məsələn:

أَبْكَىٰ – إِبْرَاهِيمُ – فَٱضْرِبْ – تَبّْ[1]

أَجْرًا – رَجُلَيْنِ – فَٱخْرُجْ – فِى ٱلْحَجّْ

أَدْبَرَ – أُدْخُلُوهَا – لَمْ يَلِدْ – مِنْ حَدِيدْ

أَطْرَافِهَا – إِطْعَامٌ – وَ لَا تُشْطِطْ – مُحِيطْ

أَقْدَامَنَا – إِقْرَأْ – أُقْسِمُ – بِٱلْحَقّْ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1) Hərfin sifəti dedikdə nə başa düşülür?
2) Eyni məxrəcdən olan hərflər bir-birindən əsasən nə ilə fərqlənir?
3) "İstila" və "istifal"ın lüğəvi və terminoloji mənalarını açıqlayın. Hansı hərflər istila və hansıları istifal sifətinə malikdirlər?
4) Ğunnənin tərifini deyin. Bu sifətə malik olan hərflər hansılardır?
5) Lin sifətinin tərifini deyin. Hansı hərflər bu sifətə malikdirlər? Misal göstərin.
6) Qəlqələ sifətinə malik olan hərfləri misal üzrə izah edin.
7) Muzzəmmil surəsini oxuyun və qəlqələ hərfləri olan sözləri göstərin.

[1] Bu vəziyyət vəqf zamanı yaranır.

### ÜÇÜNCÜ BÖLÜM

# HƏRFLƏRİN EHKAMI İLƏ TANIŞLIQ

## TƏFXİM VƏ TƏRQİQ

"Təfxim" sözü lüğətdə "böyütmək" deməkdir. Təcviddə isə səsi ağız dolusu və qalın tələffüz etməyə deyilir.

İstila hərflərinin hamısı "təfxim" olunur, yəni, ağız dolusu və qalın oxunur.

Əlbəttə, bu hərflər "fəthəli" olduqda daha çox, "sükunlu" və "zəmməli" olduqda orta, "kəsrəli" olduqda isə az təfxim olunurlar.

"Tərqiq" sözünün lüğəvi mənası "incəltmək"dir. Elə təcviddə də səsin incə tələffüz edilməsinə deyilir. İstila hərflərindən başqa qalan bütün hərflər "tərqiq" olunur.

**"Ra"** (ر) **və "ləm"** (ل) hərfləri isə istisna təşkil edir.

**Qeyd:**

"Məddli-əlif" istila hərflərindən sonra gəldikdə təfxim olunur (qalın "a" səsi ilə oxunur). İstifal hərflərindən sonra gəldikdə isə tərqiq olunur (incə "ə" səsi ilə oxunur).

## "Ra" (ر) HƏRFİNİN TƏFXİM VƏ TƏRQİQ OLUNMASI

"Fəthə" və "zəmmə" "ra" hərfinin təfxim, "kəsrə" isə tərqiq olunmasına səbəb olur.

**"Ra" hərfi aşağıdakı hallarda təfxim olunur:**

**1.** "Ra" hərfi "fəthəli" və "zəmməli" olduqda təfxim olunur. Məsələn:

رَدِفَ – رُزِقَ – مَرَّةٍ – تَبَرُّجَ – بَشَرًا – تَذَرُ

**2.** "Ra" hərfin özü sakin və ondan əvvəlki hərf "fəthəli" və ya "zəmməli" olduğu zaman "ra" hərfi təfxim olunur. Məsələn:

مَرْعَىٰ – عُرْوَةُ – أُرْسِلَ – فَٱهْجُرْ

**3.** Sakin "ra" hərfindən əvvəlki hərf sükunlu və ondan əvvəlki hərf "fəthəli" və "zəmməli" olduqda "ra" hərfi təfxim olunur. Məsələn:

صَبْرْ – فَجْرْ – عُسْرْ – خُسْرْ

**4.** Sakin "ra" **hərfindən** əvvəl "məddli-əlif" və ya "məddli-vəv" gəldikdə **"ra" hərfi təfxim olunur.** Məsələn:

نَارْ – نُورْ – شَكُورْ

**Qeyd:** 3-cü və 4-cü bəndlərdə "ra" hərfinin təfxim olunması yalnız vəqf hallarına təsadüf edir.

**5.** Sakin "ra" hərfindən" sonra gələn istila hərfləri "fəthəli" və ya "zəmməli" olduqda "ra" hərfi təfxim olunur. Baxmayaraq ki, sakin "ra" hərfindən qabaqkı hərf "fəthəli" və ya "zəmməli" deyil, "kəsrəli"dir. Məsələn:

مِرْصَادًا – فِرْقَةٍ – قِرْطَاس

**6.** Sakin "ra" hərfindən əvvəl "vəsl həmzəsi" olduqda "ra" hərfi təfxim olunur. Baxmayaraq ki, "vəsl həmzəsi"ndən qabaqkı hərf "kəsrə"lidir. Məsələn:

رَبِّ ٱرْجِعُونِى – لِمَنِ ٱرْتَضَىٰ – أَمِ ٱرْتَابُوا

**"Ra" hərfi aşağıdakı hallarda tərqiq olunur:**

**1.** "Ra" hərfinin hərəkəsi "kəsrə" olduqda:

قَرِيبُ – رِزْقٌ – ذِكْرِ

**2.** "Ra" hərfinin özü sakin və ondan əvvəlki hərf "kəsrəli" olduqda:

دِرْهَمٌ – فِرْعَوْنَ – بَشِّرْهُمْ – فَأَنْذِرْ

**3.** Sakin "ra" hərfindən əvvəlki hərf sükunlu və ondan əvvəlki hərf "kəsrəli" olduqda:

ذِكْرْ – حِجْرْ – سِحْرْ

**4.** Sakin “ra” hərfindən əvvəl “sakin-yə” və “sakin-yə”dən əvvəl “fəthə” gəldikdə:

خَيْرْ – سَيْرْ – طَيْرْ

**Qeyd:** 3-cü və 4-cü bəndlərdə “ra” hərfinin tərqiq olunması vəqf hallarına təsadüf edir. Həmçinin “مِصْرْ” sözü 3-cü bənddəki qaydadan istisna olunur.

## “Ləm” (ل) HƏRFİNİN TƏĞLİZ VƏ TƏRQİQ OLUNMASI

“Təğliz” sözü “təfxim” sözü ilə eyni mənanı daşıyır və təkcə “ləm” hərfi üçün işlədilir.

Əslində “ləm” hərfi tələffüzdə tərqiq olunur. Yalnız “Ləfzi-cəlalə”də, yəni, “Allah” sözündə təğliz olunur:

- Əgər “Allah” sözündən əvvəlki hərfin hərəkəsi “kəsrə” olarsa, təşdidli ləm hərfi tərqiq olunacaq, yəni, incə oxunacaq. Məsələn:

بِسْمِ ٱللَّهِ – دِينِ ٱللَّهِ

- Əgər “Allah” sözündən əvvəlki hərfin hərəkəsi “fəthə” və ya “zəmmə” olarsa, təşdidli ləm hərfi təğliz olunacaq. Məsələn:

إِنَّ ٱللَّهَ – اَخَافُ ٱللَّهَ

**SUAL VƏ TAPŞIRIQLAR:**

1) Təfxim və tərqiq sözlərinin lüğəvi və terminoloji mənalarını açıqlayın.
2) Hansı hərflər təfxim və hansıları tərqiq olunurlar?
3) “Ra” hərfi hansı hallarda təfxim olunur? Hər birinə nümunə göstərin.

4) "Ra" hərfi hansı hallarda tərqiq olunur? Hər birinə misal göstərin.

5) Verilən sözlərdə "ra" hərfinin harada təfxim və harada tərqiq olunduğunu müəyyənləşdirin:

فِى ٱلْأَرْضِ – حَرِّضِ ٱلْمُؤْمِنِينَ – عِشْرُونَ – صَابِرَةٌ – مَعَ
ٱلصَّابِرِينَ – أَسْرَىٰ – غَفُورٌ رَحِيمٌ – خَيْرًا – يَغْفِرْ لَكُمْ – وَ
لَا تُصَعِّرْ خَدَّكَ – بِإِخْرَاجِ ٱلرَّسُولِ – فَٱصْبِرْ صَبْرًا – أَرْسَلْنَا –
بِنَصْرِهِ – حَرِّقُوهُ – مِرْصَادِ – رِزْقٌ – إِرْبَةٍ – إِنِ ٱرْتَبْتُمْ – خَيْرٌ

6) Təğliz nədir və bu söz hansı hərf üçün işlədilir?

7) Təğliz hansı sözdə və hansı halda baş verir? Misal üzrə izah edin.

8) Verilən sözlərdə təğlizin baş verib-vermədiyini müəyyənləşdirin:

هُوَ ٱللَّهُ – عَلَى ٱللَّهِ – حِزْبَ ٱللَّهِ – رَزَقَكُمُ ٱللَّهُ – يُبَيِّنُ ٱللَّهُ –
أَخَافَ ٱللَّهَ – إِتَّقُواْ ٱللَّهَ – يَدُ ٱللَّهِ – عَبْدُ ٱللَّهِ – يَرِدِ ٱللَّهُ – يَأْتِى
ٱللَّهُ – يَسْتَغْفِرِ ٱللَّهَ – يَجِدِ ٱللَّهَ – بِسْمِ ٱللَّهِ

# İDĞAM (1)

"İdğam" sözü lüğətdə "bir şeyi başqa bir şeyə daxil etmək, birləşdirmək" mənasını daşıyır. Təcvid elmində isə bir hərfi digər bir hərfə daxil etməkdir. Belə ki, sükunlu olan birinci hərf tələffüz edilmir, ikincisi isə təşdidlə (şiddətlə) tələffüz edilir. Məsələn:

قَدْ دَخَلُوا ← قَدَّخَلُوا

**Qeyd:** Təcviddə birinci hərf "mudğəm" (**مُدْغَم**), ikinci hərf isə "mudğəmun fih" (**مُدْغَمٌ فيه**) adlanır.

İdğamın əsas faydası tələffüzü asanlaşdırmaqdır. Eyni bir sözdə və ya yanaşı olan sözlərdə eyni cinsdən olan iki hərfi, yaxud məxrəcləri eyni olan hərfləri, yaxud da məxrəcləri bir-birinə yaxın olan hərfləri ardıcıl oxuyarkən tələffüzü asanlaşdırmaq üçün bu hərflər müəyyən qaydalar əsasında "idğam" edilir.

## İDĞAMIN NÖVLƏRİ

İdğamin **3 növü** vardır:

**1. Mutəmasileyn idğamı:** Bu idğam iki eyni cinsdən olan hərflərdə baş verir.

**2. Mutəcaniseyn idğamı:** Bu idğam məxrəcləri eyni olan hərflərdə baş verir.

**3. Mutəqaribeyn idğamı:** Bu idğam məxrəcləri bir-birinə yaxın olan hərflərdə baş verir.

Mutəmasileyn idğamına Quranda çox rast gəlinir. Bunun əksinə olaraq "mutəcaniseyn" və "mutəqaribeyn" idğamı Quranda olduqca azdır.

## QURANİ-KƏRİMDƏ "MUTƏMASİLEYN" İDĞAMINA AİD NÜMUNƏLƏR

يُدْرِكْكُمْ ← يُدْرِكُّمْ

قُلْ لَهُمْ ← قُلَّهُمْ

## QURANİ-KƏRİMDƏ "MUTƏCANİSEYN" İDĞAMININ YARANDIĞI HALLAR VƏ ONLARA AİD NÜMUNƏLƏR

**1)** Mudğəm "دال" və mudğəmun-fih "تاء" hərfi olduqda;
Məsələn:

عَبَدْتُمْ ← عَبَتُّمْ

**2)** Mudğəm "تاء" və mudğəmun-fih "دال" hərfi olduqda;
Məsələn:

أُجِيبَتْ دَعْوَتُكُمَا ← أُجِيبَدَّعْوَتُكُمَا

**3)** Mudğəm "باء" və mudğəmun-fih "ميم" hərfi olduqda;
Məsələn:

ارْكَبْ مَعَنَا ← ارْكَمَّعَنَا

**4)** Mudğəm "تاء" və mudğəmun-fih "طاء" hərfi olduqda;
Məsələn:

قَالَتْ طَآئِفَةٌ ← قَالَطَّآئِفَةٌ

**5)** Mudğəm "طاء", mudğəmun-fih "تاء" hərfi olduqda;
Məsələn:

بَسَطْتَ ← بَسَطتَ

**6)** Mudğəm "ذال" və mudğəmun-fih "ظاء" hərfi olduqda;
Məsələn:

اِذْ ظَلَمُوا ← اِظَّلَمُوا

**7)** Mudğəm “ثاء” və mudğəmun-fih “ذال” hərfi olduqda; Məsələn:

يَلْهَثْ ذٰلِكَ ← يَلْهَذّٰلِكَ

## QURANİ-KƏRİMDƏ “MUTƏQARİBEYN” İDĞAMININ YARANDIĞI HALLAR VƏ ONLARA AİD NÜMUNƏLƏR

**1)** Sükunlu “لام” hərfi “راء” hərfinə qovuşduqda;

قُلْ رَبِّ ← قُرَّبِّ

بَلْ رَبُّكُمْ ← بَرَّبُّكُمْ

**2)** Sükunlu “قاف” hərfi “كاف” hərfinə qovuşduqda; bu vəziyyətə Quranda yalnız bir yerdə və aşağıdakı sözdə rast gəlmək olar:

اَلَمْ نَخْلُقْكُمْ ← اَلَمْ نَخْلُكُّمْ

**SUAL VƏ TAPŞIRIQLAR:**

**1)** İdğam və onun faydası nədir?

**2)** İdğam neçə növdür? İzah edin.

**3)** Verilən sözlərdə hansı növ idğamın yarandığını müəyyənləşdirin:

رَبِحتْ تِجارَتُهُمْ – أَلَمْ أَقُلْ لَكُمْ – تَسْتَطِعْ عَلَيْهِ – يُوَجِّهْهُ – فَٱضْرِبْ بِهِ – فَلا يُسْرِفْ فِى ٱلْقَتْلِ – وَ قُلْ لِعِبَادِى – كِدْتَ – عُدْتُمْ – قَدْ تَبَيَّنَ – لَقَدْ تابَ – عَبَّدْتَ – أَثْقَلَتْ دَعَوَا ٱللّٰهَ – وَدَّتْ طَآئِفَةٌ – فَرَّطْتُ – أَحَطْتُ – إِذْ ظَلَمْتُمْ

**4)** İsra surəsini 23-cü ayədən 49-cu ayəyə qədər oxuyun. Bu ayələrdə idğamın yerlərini və növünü müəyyənləşdirin.

# İDĞAM (2)

## İDĞAM OLUNMUŞ HƏRFLƏRİN ƏLAMƏTLƏNDİRİLMƏ QAYDASI

Mudğəm hərf mudğəmun-fihdə idğam olunduqda və mudğəm hərfin sifətindən heç bir əsər qalmadıqda, bu idğam "**kamil idğam**" adlanır. Bəzi Quranlarda kamil idğamı göstərmək üçün əslində sükunlu olan mudğəm hərfin üstündə sükun işarəsi qoyulmur və mudğəmun-fih hərfin üstündə təşdid işarəsi qoyulur. Məsələn:

قُلْ لَهُمْ ← قُل لَّهُمْ

قَالَتْ طَآئِفَةٌ ← قَالَت طَّآئِفَةٌ

اِذْ ظَلَمُوا ← اِذ ظَّلَمُوا

قُلْ رَبِّ ← قُل رَّبِّ

Mudğəm hərf mudğəmun-fihdə idğam olunan zaman onun sifətlərindən biri qaldıqda və mudğəm bütünlükdə aradan getmədikdə bu idğam "**naqis idğam**" adlanır. Naqis idğamı göstərmək üçün mudğəm hərfin üstündə sükun və mudğəmun-fih hərfin də üstündə təşdid işarəsi qoyulmur. Məsələn:

بَسَطْتَ ← بَسَطتَ

فَرَّطْتُمْ ← فَرَّطتُمْ

# “SÜKUNLU MİM HƏRFİ”NİN QAYDALARI

“Sükunlu mim” hərfinin **3 qaydası** vardır:
**İdğam, ixfa və izhar.**

**1. İdğam:**

“Sükunlu mim” hərfi özündən sonra gələn “mim” hərfində idğam olunur. Bu idğam “mutəmasileyn” idğamıdır və ğunnə ilə yanaşı olur. Məsələn:

وَهُمْ مُهْتَدُونَ ← وَهُمُّهْتَدُونَ

كَمْ مِنْ ← كَمِّنْ

**2. İxfa:**

“İxfa” lüğətdə “gizlətmək, məxfi etmək” mənasını daşıyır. “Sükunlu mim” hərfindən sonra “bə” (ب) hərfi gəldikdə “mim” hərfi ixfa olunur, yəni, “izhar” ilə “idğam” arasında “ğunnə” ilə oxunur. Başqa sözlə desək, “sükunlu mim hərfi” ağız azacıq açıq vəziyyətdə elə tələffüz edilir ki, səsin yarısı buruna düşür və iki səs miqdarında uzadılır. Məsələn:

رَبَّهُمْ بِهِمْ – اَمْ بِهِ جِنَّةٌ – بَيْنَهُمْ بِالْقِسْطِ

**3. İzhar:**

“İzhar” lüğətdə “aşkara çıxarmaq” mənasındadır. Təcviddə isə “səsin öz məxrəcindən tələffüz edilməsi”nə deyilir.

“Sükunlu mim” hərfindən sonra “mim” və “bə” hərflərindən başqa qalan 26 hərf gəldiyi zaman “mim” hərfi izhar olunacaq. Yəni, aşkar şəkildə öz məxrəcindən tələffüz ediləcəkdir.

Diqqət yetirmək lazımdır ki, “izhar” zamanı “mim” hərfinə hərəkə verilməməli və onun üzərində azacıq olsa belə dayanılmamalıdır.

## QURANDA "SÜKUNLU MİM HƏRFİ"NİN İXFA VƏ İDĞAM OLUNDUĞU ZAMAN ƏLAMƏTLƏNDİRİLMƏSİ

**1.** "Sükunlu **mim hərfi" idğam** olunduğu zaman üzərində sükun işarəsi qoyu**lmur, əvəzində ikinci** "mim" hərfinin üzərində təşdid işarəsi qoyu**lur:**

وَهُم مُّهْتَدُونَ – كَم مِّنْ – أَنَّكُم مُّلَاقُوهُ

**2.** "**Sükunlu mim** hərfi" ixfa **olunduğu zaman** sadəcə üzərində **sükun işarəsi qoyulmur** (naqis idğamda olduğu kimi):

رَبَّهُم بِهِمْ – أَم بِهِ جِنَّةٌ

**SUAL VƏ TAPŞIRIQLAR:**

**1)** "Sükunlu mim hərfi"nin hansı qaydaları var? Misal üzrə izah edin.

**2)** "Sükunli mim hərfi"nin hansı qaydası tətbiq olunarkən bu hərf ğunnə ilə yanaşı olur?

**3)** Verilən sözlərdə "sükunli mim hərfi"nin hansı qaydalarının tətbiq olunduğunu söyləyin:

هُمْ مِنْهَا – مِثْلُهُمْ مَعَهُمْ – كُنْتُمْ مُؤْمِنِينَ – كَمْ مِنْ – رَبِّهِمْ مُشْفِقُونَ
– جَاءَهُمْ مُوسَىٰ – تُصِيبَهُمْ مُصِيبَةٌ – أَجْرَهُمْ مَرَّتَيْنِ – فَهُمْ مُقْمَهُونَ
– أَنْتُمْ بِهِ – عَلَيْكُمْ بِوَكِيلٍ – كَلْبُهُمْ بَاسِطٌ – يَعْتَصِمْ بِٱللَّهِ – تَأْتِيهِمْ
بَغْتَةٌ – هُمْ بَارِزُونَ – نَجَّيْنَاهُمْ بِسَحَرٍ – أَنَّهُمْ بَادُونَ – هُمْ بَدَؤُكُمْ –
صَبَّحَهُمْ بُكْرَةً – جُلُودُهُمْ بَدَّلْنَاهُمْ – عَلَيْهِمْ بِجَبَّارٍ – ءَابَآؤُهُمْ فَهُمْ
غَافِلُونَ – بِرَبِّكُمْ فَٱسْمَعُونَ – يَذْرَؤُكُمْ فِيهِ – أَمْوَالًا – تَأْخُذُهُمْ وَ هُمْ
يَخِصِّمُونَ – هُمْ وَ أَزْوَاجُهُمْ فِي ظِلَالٍ

**4)** Yasin surəsini 50-ci ayəyə qədər oxuyun. Bu ayələrdə "sükunlu mim" hərfinin idğam və ixfa olunduğu yerləri müəyyənləşdirin.

# “SÜKUNLU NUN HƏRFİ” VƏ “TƏNVİN”İN QAYDALARI (1)

“Sükunlu nun hərfi” və “tənvin”in[1] **4 qaydası** vardır:
**İzhar, idğam, iqlab və ixfa.**

**1. İzhar:**

“Sükunlu nun” hərfi və ya “tənvin”dən sonra “həlq hərfləri” gəldikdə “nun” hərfi öz məxrəcindən aşkar şəkildə tələffüz ediləcəkdir.

“Həlq hərfləri” aşağıdakılardır:

ء – ه – ح – خ – ع – غ

“Sükunlu nun” hərfi və “tənvin” izhar olunduğu zaman aşağıdakı incəliklərə diqqət yetirmək lazımdır:

**1)** “Sükunlu nun” və ya “tənvin” heç bir hərəkə qəbul etməsin;

**2)** “Sükunlu nun” və ya “tənvin” sürətlə tələffüz edilsin və üzərində azacıq belə dayanılmasın (əks təqdirdə tələffüzdə təşdid əmələ gələr);

**3)** Tələffüz zamanı “sükunlu nun” və ya “tənvin” ilə həlq hərfləri arasında havanın ümumi axını dayandırılmasın. Məsələn:

مَنْ ءَامَنَ – إِنْ هُوَ – وَانْحَرْ – عَلِيمًا حَلِيمًا

**2. İdğam:** “Sükunlu nun” hərfi və ya “tənvin”dən sonra aşağıdakı hərflər gəldikdə gəldikdə, “nun” hərfi bu hərflərdə idğam olunur:

ى – ر – م – ل – و – ن

Bu hərflər şərti olaraq **“yərməlun”** (يَرْمَلُونْ) adlanır.

---

[1] Tənvində “sükunlu nun” vardır.

Bu idğam "ləm" (ل) və "ra" (ر) hərflərində ğunnəsiz, qalan dörd hərfdə isə ğunnəli olur. Məsələn:

مَنْ رَحِمَ – مِنْ لَدُنْ – مَنْ مَعِيَ – إِنْ نَشَآءْ – مِنْ وَلَدٍ – مَنْ يَقُولُ – غَفُورٌ رَحِيمٌ – رِزْقاً لَكُمْ – أُمَّةً وَاحِدَةً

**Qeyd:**

Aşağıdakı sözlərdə "sükunlu nun hərfi" "yərməlun" hərflərindən olan "vəv" və "yə" hərfləri ilə bir sözdə olduğu üçün "sükunlu nun hərfi" bu hərflərdə idğam olunmur:

قِنْوَان – صِنْوَان – دُنْيَا – بُنْيَان

## QURANDA "SÜKUNLU NUN HƏRFİ" VƏ "TƏNVİN"İN İDĞAM OLUNDUĞU ZAMAN ƏLAMƏTLƏNDİRİLMƏSİ

- "Sükunlu nun" hərfi ن – ل – م – ر hərflərində "kamil idğam" olunur. Bunu göstərmək üçün "nun" hərfinin üstündə sükun qoyulmur, əvəzində bu hərflərin üstündə "təşdid" işarəsi qoyulur:

مَن رَّحِمَ – مَن مَّعِيَ

- "Sükunlu nun" hərfi و – ى hərflərində "naqis idğam" olunur və bunu göstərmək üçün sadəcə "nun" hərfinin üstündə sükun işarəsi qoyulmur:

مِن وَلَدٍ – مَن يَقُولُ

- Tənvinlərdə "sükunlu nun" hərfinin idğam olunduğunu göstərmək üçün tənvinlər bir-birinə paralel olmayan surətdə yazılır.[1]

---

[1] Burada tənvinlərin həmin şəklini qeyd etmək texniki imkanlar baxımından mümkün olmadığı üçün Osman Taha xətti ilə çap edilən Quranlara müraciət edin.

**SUAL VƏ TAPŞIRIQLAR:**

1) "Sükunlu nun hərfi" və "tənvin"dən sonra hansı hərflər gəldikdə "sükunlu nun" izhar olunur?
2) Həlq hərfləri hansılardır?
3) "Sükunlu nun hərfi" və "tənvin"in idğamı hansı halda yaranır?
4) "Yərməlun" hərflərin hansında "kamil idğam" və hansında "naqis idğam" baş verir?
5) Hansı sözlər "sükunlu nun hərfi"nin idğam qaydasından istisna olunur?
6) Duxan surəsini oxuyun. Bu surədə "sükunlu nun" və "tənvin"in idğam olunduğu yerləri müəyyənləşdirin.

# "SÜKUNLU NUN HƏRFİ" VƏ "TƏNVİN"İN QAYDALARI (2)

**3. İqlab:**

"İqlab" sözünün lüğəvi mənası "çevirmə" deməkdir.

Təcviddə isə bir hərfin digər bir hərfə çevrilməsidir. "Sükunlu nun hərfi" və "tənvin"dən sonra "bə" (ب) hərfi gəldikdə, "nun" hərfi "mim" hərfinə çevrilir. Nəzərə alın ki, "mim" hərfindən sonra "bə" hərfi gəldikdə ixfa olunur və "mim" ğunnə ilə oxunur. Məsələn:

أَنْبِئْهُمْ – سَمِيعًا بَصِيرًا – مِنْ بَعْدِهِمْ

**4. İxfa:**

"Sükunlu nun hərfi" və "tənvin"dən sonra "həlq hərfləri", "yərməlun hərfləri" və "bə" hərfindən başqa qalan 15 hərf gəldikdə "nun" hərfi ixfa olunur. Bu halda səs, ğunnə ilə iki səs miqdarında davam edir. Məsələn:

أَنْتُمْ – عِنْدَهُمْ – مِنْ ذَهَبٍ – أَنْزَلَ – إِنْشَآءَ

# QURANDA "SÜKUNLU NUN HƏRFİ" VƏ "TƏNVİN"İN İQLAB VƏ İXFA OLUNDUĞU ZAMAN ƏLAMƏTLƏNDİRİLMƏSİ

- İqlabın baş verdiyini göstərmək üçün "sükunlu nun" hərfinin sükun işarəsi yazılmır, əvəzində "nun" hərfinin üstündə kiçik "mim" hərfi (نۢ) yerləşdirilir. Tənvinlər isə bu şəkildə yazılır:



- İxfanın baş verdiyini göstərmək üçün "naqis idğam"da olduğu kimi "nun" hərfinin üstündə sükun işarəsi yazılmır. Tənvinlər isə bir-birinə paralel olmayan şəkildə yazılır.

**SUAL VƏ TAPŞIRIQLAR:**

1) "Sükunlu nun hərfi" və "tənvin" hansı hərfə qovuşduqda "iqlab" baş verir?
2) İxfa qaydası nə zaman tətbiq olunur?
3) Vaqiə surəsini oxuyun. Bu surədə ixfa və iqlabın yerlərini müəyyənləşdirin.